**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın**

**3 saylı protokolu**

Daşkəsən şəhəri 12 oktyabr 2023-cü il

**İştirak edirdilər:**

İctimai Şuranın üzvləri:

1. Həsənov Samir Fidail oğlu (İctimai Şuranın sədri);
2. Əliyev Emin Etibar oğlu (İctimai Şuranın sədr müavini);
3. Zeynaova Aygül Azad qızı (İctimai Şuranın katibi);
4. Cəfərova Gülnar Abbasqulu qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu.

Dəvət olunanlar: "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov, Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Mətanət Abdullayeva, Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri Bakir Qurbanov

**İclasın sədri: S. Həsənov**
**İclasın katibi: A. Zeynalova**

**Gündəlik üzrə məsələlər:**

1. Daşkəsən rayonu ərazisində məişət tullantılarının idarə olunması;
2. İctimai Şuranın fəaliyyətinə dair cari məsələlər.

Gündəlik səsə qoyuldu və yekdilliklə qəbul edildi.

**Eşidildi:**

İclasa sədrlik edən İctimai Şuranın sədri Samir Həsənov iclası açıq elan etdi. Katibdən kompüterin arxasına keçərək protokol üçün qeydlər etməsini xahiş etdi. Samir Həsənov birinci məsələ barədə danışdı. Bildirdi ki, məişət tullantısı problemi ölkəmizdə olduğu kimi turizm zonası olan Daşkəsən rayonunda da illərdir ki, müzakirə predmetidir. Bu problem Daşkəsən şəhərinin mərkəzi ərazilərində az müşahidə edilsə də, rayonun qəsəbələrində, kəndlərində özünü qabarıq büruzə verir. Məişət tullantıları ətraf mühitə yayılmaması üçün mütəmadi nəzarət olmalıdır. Tərəfimizdən aparılan müşahidələr zamanı bir çox yaşayış məntəqələrində tullantıların toplanması üçün tutumlar, meydançalar kifayət qədər olmadığından əsasən Yuxarı Daşkəsən qəsəbəsində, Bayan və Xoşbulaq kəndlərində məişət tullantılarının mövcud qanunvericiliyə uyğun qaydada idarə olunmadığı, qeyri-mütəşəkkil qalaqlandığı və ətrafa qoxunun yayıldığı faktı təsdiqini tapmışdır. Bəzi hallarda aidiyyəti qurumlar məlumatlandırıldıqdan sonra yerlərdə tullantıların idarə edilməsinə cavabdeh bələdiyyələrin sədrlərinə ərazinin tullantılardan təmizlənərək əvvəlki vəziyyətə gətirilməsi və gələcəkdə belə hallara yol verilməməsi üçün "məcburi göstəriş"lər verilmişdir. Vətəndaşların narazılığına səbəb olan tullantıların idarə olunmasında mövcud problemlərin həlli ilə əlaqədar Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən çoxsaylı tədbirlər, o cümlədən iməciliklər, ağacəkmə aksiyaları həyata keçirilir.

Əhali arasında mütəmadi ekoloji maarifləndirmə aparılır. Lakin maarifləndirmənin daha da gücləndirilməsi hər zaman aktual olaraq qalır.

Bundan sonra İctimai Şuranın üzvləri İctimai Şuranın fəaliyyətinə dair cari məsələləri müzakirə elədilər. Cari məsələlərdə:

1. Şura üzvü ardıcıl olaraq 3 (üç) dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə Şura üzvlüyünə xitam verilməsi;

2. Dinləmənin və müzakirənin mövzusu barədə maraqlı tərəflərin məlumatlandırılması, habelə iştirakının təmin edilməsi;

3. Şəhid və qazi ailələrinin problemlərinin həll edilməsi istiqamətində Şuranın səlahiyyətləri çərçivəsində aidiyyəti işlər görülməsi.

**Çıxışlar:**

1. İctimai Şuranın sədr müavini Emin Əliyev Şuranın fəaliyyəti və əhəmiyyətindən bəhs edərək hər bir üzvü aktiv şəkildə fəaliyyət göstərməyə, qarşıda duran vəzifələri layiqincə yerinə yetirməyə çağırdı.

2. İctimai Şuranın üzvü Vüqar Xəlilov çıxışında Şura üzvlərinin cari fəaliyyət planı üzrə həmişə olduğu kimi bundan sonra da vətəndaşlarla, şəhid ailəsi üzvləri və qazilərlə görüşməyin, onların müraciətlərini dinləməyin və həmin müraciətlərlə bağlı dəstək göstərməyin, müraciətlərin aidiyyəti qurumlara yönəltməyin təxirəsalınmaz vəzifə olduğunu vurğuladı.

3. Şuranın katibi Aygül Zeynalova Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsinin vacibliyini dəfələrlə qeyd etməsindən, müxtəlif sahələrdə mövcud olan problemlərin araşdırılmasına və onların həlli yollarına dair təkliflər hazırlanmasında vətəndaş cəmiyyəti təsisatlarının fəal iştirakı ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verməsindən geniş məlumat verdi.

Gündəlikdəki məsələlərdə qeyd olunan mövzular müzakirə edildikdən sonra səsə qoyuldu və yekdilliklə qəbul edildi.

**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şura qərara alır:**

1. Daşkəsən rayonunun yaşayış məntəqələrində məişət tullantıların idarə olunmasında mövcud problemlərin həlli ilə əlaqədar Daşkəsən Rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə aidiyyəti qurumlarla birgə tədbirlərin görülməsi, əhali arasında ekoloji maarifləndirmə işlərinin aparılması istiqamətində işlər davam etdirilisin.

2. Şura üzvü ardıcıl olaraq 3 (üç) dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə Şura üzvlüyünə xitam verilsin.

3. Dinləmənin və müzakirənin mövzusu barədə maraqlı tərəflərin məlumatlandırılması, habelə iştirakı təmin edilsin.

4. Şəhid və qazi ailələrinin problemlərinin həll edilməsi istiqamətində Şuranın səlahiyyətləri çərçivəsində aidiyyəti işlər görülsün.

**İclasın sədri:** **Samir Həsənov**

**İclasın katibi:** **Aygül Zeynalova**